Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Information for All Programme

YUNESKO-nun "İnformasiya hamı üçün" Proqramının Azərbaycan Komitəsi

United Nations Educational, Scientific and Cultural Organization

Gəncə Şəhər İcra Hakimiyyəti

www.ryl.az

# «Gənclər–İnnovasiyalar–Kitabxanalar» Azərbaycan–Rusiya elmi–praktiki konfransın MATERİALLARI

Konfrans Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyinin
211e nömrəli 01.09.2016-cı il tarixli
əmrinə əsasən keçirilib.

Bakı – 2016

## MÜNDƏRİCAT
## СОДЕРЖАНИЕ


**Gəncə şəhərinin "2016-cı il Avropa gənclər paytaxtı" seçilməsi ilə əlaqədar tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı............................5**

**Распоряжение Президента Азербайджанской Республики о мерах в связи с избранием города Гянджа «Молодежной столицей Европы 2016 года»..8**

Çıxışlar

Выступления

***Stepanov V.K.***
Hər şeyin dəyişdiyi dünya: rəqəmsal texnologiyaların nailiyyətləri, inkişaf perspektivləri və onların informasiya-kommunikasiya sistemlərinə təsiri................11

***Степанов В.К.***
Мир, где меняется всё: достижения и перспективы развития цифровых технологий и их влияние на систему информационных коммуникаций....................20

***Məmmədova L.***
Elektron kitabxanalar mədəniyyətin fenomeni kimi...........29

***Мамедова Л.***
Электронные библиотеки как феномен культры...........32

***Pelevin P.N.***
Kitabxana yaradıcı gənclər üçün təşəbbüs məkanı kimi.....35





***Пелевин П.Н.***
Библиотека как пространство творческих молодежных инициатив..................................................................42

***Vaxruşeva A.L.***
Şəhər mühitində gənclər üçün kitabxana media-layihələr məkanı kimi...................................................................50

***Вахрушева А.Л.***
Пространственные библиотечные медиа-проекты для молодежи в городской среде.........................................55

***Həsənova E.***
"Gəncə Avropa Gənclər paytaxtı 2016" ölkələr arasında mədəni əlaqələrin inkişaf etdirilməsində gənclərin rolu.....61

***İsmayılova Ə.***
Gənclərin mütaliə mədəniyyətinin formalaşmasında Milli Kitabxananın rolu..................................................66

***Stepanov V.K.***
Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin prioritetli layihələri......................................................................78

***Степанов В.К.***
Приоритетные проекты Министерства культуры Российской Федерации..................................................87

***Ağayeva Ş.***
Kitabxana sahəsinin inkişafında yeniliklər axtarışında......97

***Lyutetski V.M.***
Kitabxanalar üçün kompleks innovasiyalı qərarlar: dizayn, mebel, avadanlıq, texnologiyalar.........................103

***Лютецкий В.М.***
Комплексные инновационные решения для библиотек: дизайн, мебель, оборудование, технологии – доклад-презентация..............................119

*Azayeva A.*
Kitabxanalarda uşaq və yeniyetmələrlə iş........................135
*Mədətzadə N.*
Müasir regional kitabxanalar..........................................139
*Popova Y.A.*
Kitabxananın sosiomədəni fəaliyyəti
("Teffi" kitabxana-sosiomədəni mərkəzin təcrübəsi,
Tixvin şəhəri, Leninqrad vilayəti)....................................143
*Попова Е.А.*
Социокультурная деятельность библиотеки
(опыт библиотеки-социокультурного центра
«Тэффи», г. Тихвин, Ленинградская область)..............154
*Andon O.A.*
Adi yerdə uğurlu kitabxananı necə yaratmalı:
fəaliyyət üçün qısa rəhbər vəsait.......................................166
*Андон О.А.*
Как создать успешную библиотеку в заурядном
месте: краткое руководство к действию.......................196
*Nəcəfova Z.*
Sıfır büdcədən kitabxananı necə dəyişməli......................227
*Yaqubova S.*
Kitabxanalar virtual məkanda..........................................236
*Ağamirzəyeva V.*
Kitabxanalar innovasiya və müasir texnologiyaların
tətbiqi şəraitində..............................................................242

## Gənclərin mütaliə mədəniyyətinin formalaşmasında Milli Kitabxananın rolu

***Ədibə İsmayılova,***
*Azərbaycan Milli Kitabxanasının*
*Oxuculara xidmət işləri üzrə direktor müavini,*
*Bakı, Azərbaycan*

Mütaliə insanı kamilləşdirir, intellektual səviyyəsini yüksəldir, bilikli, yüksək elmi və mədəni səviyyəli bir şəxsiyyətə çevirir.

**Abuzər Xələfov**

Azərbaycan Milli Kitabxanasının oxucularının əksəriyyətini təsadüfi tələbatçılar yox, ardıcıl mütaliəçilər təşkil edir. Bunlar elmi mərkəzlərdə, elmi-tədqiqat institutlarında, ali məktəblərdə fəaliyyət göstərən elmi işçilər, tələbələr və gənclərdir. Kitaba, mütaliəyə, informasiya almağa marağı olan hər bir gənc heç şübhəsiz ki, İnternetlə təmin olunmuş və kifayət qədər operativ xidmət göstərən informasiya mərkəzinə - kitabxanaya daim ehtiyac duyur. Müasir dövrdə gənclərin informasiya ilə təmin edilməsi, informasiya ehtiyatlarının mühafizəsi kitabxanaların əsas vəzifələrindən biridir.

Məlumdur ki, insan müxtəlif şəraitdə, evdə, yolda, işdə, istirahət müəssisələrində mütaliə edə bilər. Lakin tələbatına müvafiq olaraq hər hansı mövzu və ya problem haqqında mükəmməl elmi məlumat əldə etmək məqsədi daşıyan mütaliə isə yalnız kitabxana şəraitində baş verə bilər. Zəngin kitab fonduna malik olan Azərbaycan Milli Kitabxanasında oxucuların mütaliəsi üçün hər cür şərait yaradılmışdır. Kitabxananın oxu zalları elm sahələrinə, oxucu qruplarına, ədəbiyyatın növünə görə ixtisaslaşmışdır. Oxu zallarında vaxtaşırı yeni ədəbiyyat, əlamətdar və tarixi günlərə dair kitab və dövri mətbuat sərgiləri təşkil edilir. Oxu zallarının yardımçı fondları oxucu sorğuları əsasında komplektləşdirilir. Respublikamızda uzun illərdən bəri formalaşmaqda olan kitabxana fondları içərisində Milli Kitabxananın universal məzmunlu kitab fondu xüsusi yer tutur. Zəngin kitab fonduna malik Milli Kitabxanada Azərbaycan kitab mədəniyyətinin ilk nümunələri - daşbasma üsulu ilə çap olunmuş ilk çap kitabları, XIX əsrin dövri mətbuat nümunələri toplanmışdır. Kitabsaxlayıcıda bütün elm sahələri üzrə kitablar, jurnallar, ardı davam edən nəşrlər, qəzetlər, avtoreferatlar, dissertasiyalar toplanır.

Bu gün gənclər bir neçə istiqamətdən mütaliə etmək imkanı qazanıblar. Onlar həm internet, həm də çap variantında kitab oxumaq, öz biliklərini artırmaq imkanlarına malikdirlər. Mütaliə gənclərin şifahi və yazılı nitq mədəniyyətini yüksəldir, söz ehtiyatını artırır. Mütaliə gənclərdə kitabla işləmək, ondan istifadə etmək vərdişləri əmələ gətirir .Kitabxananın tələbələr üçün nəzərdə tutulmuş oxu zalında Yardımçı fond bölməsi fəaliyyət göstərir. Bölmənin fondu tələbələrin sorğusu əsasında komplektləşdirilir. Yardımçı fond oxucuların gündəlik mütaliə sorğularını operativ, tam və dolğun ödəyir. Fondda əsasən yeni nəşr olunan ədəbiyyat toplanılır. Yardımçı fond bölməsində gənclərə istər mövzuya, istərsə də ədəbiyyat sorğusuna görə birbaşa xidmət göstərilir. Onlar burada olan ədəbiyyatları sifariş vermədən birbaşa alır və mütaliə edirlər. Statistik göstəricilərə görə tələbə gənclər zalından gün ərzində orta hesabla 800-850 gənc oxucu istifadə edir.

Milli Kitabxanada tələbə gənclər zalının hesabına oxuculara kitab verilişinin böyük bir qismi həyata keçirilir. Zalda gündəlik ümumi oxucu sorğularının üçdə iki hissəsi ödənilə bilir. Son zamanlar Milli Kitabxanaya müraciət edən oxucuların sayı artmışdır. Bu artım gənclər arasında daha yüksəkdir. Hazırda Milli Kitabxanaya müraciət edən gənc oxucuların sayı 74 756 nəfərdir. 2016 -cı ilin altı ayı ərzndə kitabxanaya gələn gənc oxucuların davamiyyəti 127 111 nəfərə, onlara kitab verilişi isə 480 060 nüsxəyə çatmışdır.



**Tələbə gənclər zalı**

Bu gün gənclər Milli Kitabxananın saytına daxil olmaqla kitabxananın fond və kataloqları ilə yanaşı, ABŞ-ın Konqres Kitabxanasının və Rusiya Dövlət Kitabxanasının fond və kataloqlarında birbaşa axtarış aparmaq imkanına malikdir. Milli Kitabxananın oxucuları yerli dissertasiyalarla yanaşı, eyni zamanda Rusiya Dövlət Kitabxanasının dissertasiya və aftoreferatlarının tammətnli elektron bazasından da istifadə edirlər.

Kitabxanada gənclərin mütaliəyə marağını artırmaq məqsədilə müasir tələblərə cavab verən Lokal şəbəkədən istifadə üzrə oxu zalı açılmışdır. Bu zalda daha çox oxucunun eyni zamanda kitabxananın lokal şəbəkəsində yerləşdirilmiş elektron



resurslardan istifadə imkanları artmışdır. Burada eyni zamanda 24 kompüter və elektron kitablar vasitəsilə oxuculara xidmət edilir. Müasir oxucu tələbinə cavab verən bu zal gənclərin mütaliəyə marağını artırır, onlarda mütaliə mədəniyyətinin yüksəldilməsinə kömək edir. Burada həmçinin Azərbaycan virtual kitabxanasına daxil olan elektron resurslardan, digər respublika və dünya kitabxanalarının elektron resurslarından da sərbəst şəkildə istifadə etmək, onların surətlərini çıxartmaq da mümkün olur. Lokal şəbəkədən istifadə üzrə oxu zalı yaradıldıqdan sonra kitabxanada mütaliə üçün yaranan növbələr aradan qaldırılmışdır.



**Lokal şəbəkədən istifadə üzrə oxu zalı**



**Lokal şəbəkədən istifadə üzrə oxu zalı (Elektron kitab vasitəsilə mütaliə)**

Milli Kitabxanada gənclərin oxu vərdişlərinin inkişaf etdirilməsi, mütaliəyə marağının artırılması, kitabın gündəlik həyatımızın bütün sahələrinə daxil edilməsinə nail olmaq məqsədilə "İmzalı Görüş" layihəsi çərçivəsində yazıçılar , şairlərlə görüşlər keçirilir.



**Azərbaycan gənclərini kitabxanalara cəlb etmək məqsədilə "İmzalı görüş" layihəsi çərçivəsində millət vəkili yazıçı-publisist Aqil Abbasla görüş**

Bu görüşlər yazıçılarla, şairlərlə gənclər arasında canlı ünsiyyət yaradır. Tədbir müddətində fəal oxucularla müəlliflərin, tanınmış insanların bir-birinə qarşılıqlı kitab hədiyyə etməsi layihənin əsas məqsədlərindən biridir.Görüş zamanı müəlliflər kitablarını öz imzaları ilə gənclərə təqdim edirlər. Gənclər müəllifdən şəxsi avtoqraf almaq imkanı da qazanırlar. İmza gününə gələn gənclərə müəllifin arxivindən də kitablar təklif edilir. "İmzalı Görüş" mərasimləri çox səmimi keçir.Görüş zamanı yazıçılarla gənclər isti təmas qura bilir.



Milli Kitabxanada gənclərin kitaba olan marağının artırılması yönündə təşkil edilən tədbirlərdən biri də «Maraqlı insanlarla görüş klubu" layihəsi çərçivəsində tanınmış insanlarla görüşlərin keçirilməsidir.Maraqlı insanlarla görüş klubu Milli Kitabxananın gənc oxucularının ürəyincədir. Adından bəlli olduğu kimi bu klub gəncləri maraqlı insanlarla görüşdürür. Bu görüşlər gənclərin şifahi və yazılı nitq mədəniyyətini yüksəldir, söz ehtiyatını artırır.



**"Maraqlı insanlarla görüş klubu" layihəsi çərçivəsində xalq yazıçısı Çingiz Abdullayevlə görüş**

Milli Kitabxanada əlamətdar və tarixi günlərə dair kitab və dövri mətbuat sərgilərinin, yeni çap olunmuş kitabların sərgisinin təşkil edilməsi, mütaliəyə maraq yaratmaqda çox əhəmiyyət kəsb edir. Oxucular yeni sərgilənmiş kitablarla tanış olur, müzakirələr, fikir mübadiləsi edirlər.

2008-ci ildən Milli Kitabxanada oxuculara virtual kitab sifarişi imkanı da yaradılmışdır. Yəni İnternetə çıxışı olan hər bir oxucu yaşayış və yaxud iş yerindən kitabxananın saytındakı Virtual xidmət bölməsinə daxil olaraq istənilən kitabı sifariş edə bilər və dərhal ona həmin kitabın kitabxanada olub-olmaması barədə məlumat verilir, lazım gəldikdə onu sifariş edir və artıq oxucu kitabxanaya gələrkən kitab rəfdə onu gözləyir. Bu gün Milli Kitabxana bütün oxuculara və İnternet istifadəçilərinə virtual rejimdə xidmət göstərir. Kitabxananın saytında "Biblioqrafik sorğu" bölməsi yaradılmışdır və ölkənin istənilən nöqtəsindən müxtəlif oxucular, istifadəçilər sorğularını sayt vasitəsilə Milli Kitabxanaya ünvanlayır və ən qısa müddətdə öz sorğularına cavab ala bilirlər. Milli Kitabxanada oxuculara xidmət işinin inkişafı sürətlə davam edir. Bu isə xidmət sahələrinin artırılmasını, oxuculara yeni xidmət növləri təklif etməyi tələb edir.

Mütaliəyə marağın artması, kitabxana-oxucu əlaqələrinin genişlənməsi, kitab müzakirələrinin keçirilməsi, mütaliənin sevdirilməsi Milli Kitabxananın qarşısında duran əsas vəzifələrdən biridir. Gənclərin mütaliə mədəniyyətinin formalaşması məqsədilə Mədəniyyət və Turizm Nazirliyinin və Milli Kitabxananın birgə layihəsi əsasında Milli Kitabxananın nəzdində günün 24 saatı ərzində gənclərin və bütün vətəndaşların sərbəst şəkildə kitab mütaliə etməsinə şərait yaradan Açıq kitabxana - sərbəst mütaliə guşəsi yaradılmışdır.





**20 iyul 2016-cı il. Açıq kitabxananın açılış mərasimi**

Burada vətəndaşlar, oxucular, yazıçılar, şairlər, ziyalılar və alimlər tərəfindən kitabxanaya təqdim olunan kitablar nümayiş olunur və onların mütaliəsinə şərait yaradılır. Eyni zamanda açıq kitabxanada "Mən oxudum, sən də oxu" devizi altında "Kitabı kitaba dəyişmə" guşəsi də fəaliyyət göstərir. Burada hər bir vətəndaşa artıq özünün mütaliə etdiyi kitabı gətirərək həmin guşəyə təhvil vermək və əvəzində mütaliə etmədiyi kitabı apararaq özünün iş və yaşayış yerində mütaliə etmək imkanı yaradılmışdır. Bu guşəyə müraciət edən hər bir kəs artıq onun mütaliə etdiyi kitabların başqa şəxslər tərəfindən də mütaliə olunmasına şərait yaradır. Burada həmçinin açıq səma altında poeziya gecələri, mütaliə axşamları, ayrı-ayrı yazıçı və şairlərlə görüşlər keçiriləcək, yazıçı və şairlərin yeni kitablarının təqdimat mərasimləri təşkil olunacaq, onlarla imzalı görüşlər keçiriləcəkdir. Açıq kitabxanada

Azərbaycanda və xarici ölkələrdə çap olunan istənilən kitabın onlayn sifarişi və oxuculara çatdırılması da təşkil olunacaq. Bir sözlə, yeni layihə oxucularla müəlliflərin görüş yerinə çevriləcək, kitabla oxucular arasında fəal əlaqələndirmə funksiyasını yerinə yetirəcək. Yeni kitabxanada Uşaq guşəsi, Dövri mətbuat bölməsi və Milli musiqi guşəsi də yaradılıb. Bu günlərdə Açıq kitabxanada Milli Kitabxananın Beynəlxalq Muğam Mərkəzi ilə birlikdə həyata keçirəcəyi "Ədəbi-musiqili axşamlar" layihəsinə start veriləcəkdir. Görkəmli xanəndələrin, musiqi ifaçılarının, şairlərin və aktyorların iştirakı ilə Azərbaycan poeziyasının klassiklərinə həsr olunmuş ədəbi-musiqili axşamlar keçiriləcəkdir.

Açıq kitabxananın fəaliyyət göstərdiyi qısa müddət ərzində bu sərbəst mütaliə mərkəzi çoxlu sayda insanların asudə vaxtlarını keçirdikləri bir məkana çevrilmişdir. Heç təsadüfi deyildir ki, bir sıra kütləvi informasiya vasitələri, televiziyalar, o cümlədən qəzetlər, saytlar bu məkan haqqında reportajlar hazırlamış və insanlar bu təcrübəni çox yüksək qiymətləndirərək respublikanın və paytaxtımızın digər yerlərində də təşkilini arzu etdiklərini söyləmişlər. Qısa müddət ərzində Açıq kitabxanaya gələn oxucuların sayı artıq 10 min nəfəri keçmişdir. Rəy və təkliflər kitabında təkcə şəhərimizin sakinləri deyil, çoxlu sayda Bakıya gələn xarici turistlərin də müsbət rəyləri öz əksini tapmışdır.








Rəy və təkliflər kitabı



Açıq kitabxana

Mütaliə bütün insanların, o cümlədən gənc nəslin tərbiyəsində mühüm əhəmiyyət kəsb edir. Mütaliə edilən hər bir kitab oxucunun təfəkkürünü inkişaf etdirir, yeni bilik qazandırır, marağını, mənəvi tələbatını ödəyir. İnsanın şəxsiyyət kimi formalaşmasına kömək edir. Kiçik yaşlarından kitaba olan maraq gəncləri həyat həqiqətlərini dərk etməyə sövq edir, onlarda mütaliə mədəniyyətini inkişaf etdirir.

Xalqımızın yaratdığı qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanmasında,bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında kitabxanalarımız əvəzsiz rol oynayır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə bütün nəşrlərin çap olunub kitabxanalara təhvil verilməsi gənclərin, bütün əhalinin mütaliə mədəniyyətinin inkişafına güclü təsir göstərmişdir. Yalnız bundan sonra mütaliə üçün geniş imkan və şərait yaranmışdır.



**Açıq kitabxana gecə saatlarında da işləyir**



Kitab idrak mənbəyi, kamillik vasitəsidir və insan əsl təhsili mütaliə etməklə qazanır. Bu vasitə ilə insan öz ruhunu qidalandırır, daxilindəki mənəvi boşluğu doldurur. Azərbaycan həmişə kitabsevər ölkə kimi tanınıb. Çox oxuyan, mütaliə edən insan çox bilir, geniş dünyagörüşünə malik olur, cəmiyyətdə özününün layiqli yerini tapır. Azərbaycan həmişə yüksək bilikli, mütaliəyə, kitaba maraq göstərən insanların vətəni olub. Azərbaycanda oxuyan gənclik həmişə olub, bu gün də var, gələcəkdə də olacaq.